UOT 94 "19/..."
https://doi.org/10.30546/3006-0346.2025.3.87.580

# TÜRKİYƏ VƏ ABŞ ARASINDA ENERJİ TƏHLÜKƏSİZLİYİ VƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏSİNDƏ ŞİMALİ İRAQ AMİLİ

**AYTƏN KƏRİMLİ**
*Bakı Dövlət Universitetinin Tarix fakültəsi Avropa və Amerika ölkələrinin yeni və ən yeni tarixi kafedrasının doktorantı*
*E-mail: aytenkerimli92@gmail.com*

Enerji ehtiyatlarına sahib olan dövlətlərin iqtisadi, sosial-siyasi komponentlərinə mühüm təsir göstərən dünya sənayesinin ən mühüm seqmenti onların hasilatı, emalı və dünya bazarında satışıdır. Aydındır ki, müasir dünyada neft-qaz amili mühüm rol oynayır və əksər ölkələrin daxili, xarici və iqtisadi siyasətinin formalaşmasına mühüm təsir göstərir. Amerikalı iqtisadçı D.Yergin çox düzgün vurğulamışdır ki, "neft az qala puldur və buna görə də karbohidrogenlərin hasilatı, emalı və satışı dövlətin siyasi strategiyasının formalaşması ilə sıx bağlıdır" [6, s.16]. ABŞ-nin İraqa müdaxiləsini şərh edən siyasətçilərin fikrincə bununla Vaşinqton bölgənin enerji resurslarına hakim olmaq istəyi ilə sıx bağlı idi. Çünki müharibədən əvvəl ABŞ-nin bəzi mühafizəkar dairələrinin verdiyi bəyanatlarda, məsələn, vitse-prezident Dik Çeyninin Səddamın "dünyanın enerji təchizatının əksəriyyətinə nəzarəti ələ keçirmək üçün kütləvi qırğın silahlarından ibarət nəhəng arsenal qurmasına" dair bəyanatı buna inananların sayını artırmışdı [9]. Beləliklə müharibənin əsas səbəbi ABŞ-nin regionun enerji resurslarına nəzarət idi. Enerji təchizatının fasiləsiz saxlanmasının Amerikanın prioritetləri arasında olduğunu etiraf etmək lazım olsa da, bu prioritetin İraq müharibəsinin başlanmasının yeganə səbəbi olduğunu söyləmək düzgün olmazdı. Belə ki, ABŞ mübarizə aparmadan dünya enerji bazarlarında və qiymətlərində hökmranlıq edə bilərdi. Lakin ABŞ şirkətlərinin müharibədən əvvəl uzun illər İraqın enerji bazarından kənarda qalması faktı onların Buş administrasiyasına təsir etmək imkanı əldə etməsinə yol açmışdır. Bu çərçivədə, İraqın enerji qaynaqlarına nəzarət, müharibəni başlatan səbəb olmasa belə, ABŞ rəhbərliyinin müharibədən sonrakı İraqda apardığı tənzimləmə siyasətində mühüm prioritetlərindən birinə çevrilmişdi. Beləliklə, enerji ehtiyatlarını şaxələndirmək yolu ilə enerji ehtiyacını ödəməyi və xarici asılılığı azaltmağı hədəfləyən Türkiyənin enerji siyasəti bu yaxınlaşmanı təmin edən hərəkətverici qüvvələrdən biri olmuşdur.

Qeyd olunduğu kimi Yaxın Şərq regionunda dünya neft və təbii qaz ehtiyatlarının 65%-i yerləşir. Bunların təqribən 11%-i İraq torpağındadır və 2003-cü ildə ABŞ-nin işğalından sonra tam hasilat potensialına çatmasa da, neft ehtiyatlarına görə dünyada üçüncü yeri tutmuşdur. Lakin İraq müharibəsi ABŞ və müttəfiqlərinin ehtiyac duyduğu həyati enerji resurslarını və onların dünya bazarlarına daşınmasını təhlükə altına qoymuşdu. Çünki müharibə zamanı və ondan sonra dünyada neft və təbii qazın qiymətinin 30 dollardan 75 dollara yüksəlməsinə baxmayaraq İraqda hasilat azalmışdı. Müharibədən əvvəl, yəni 2002-ci il statistikasına görə gündəlik hasilat 2,2 milyon barel olduğu halda, 2006-cı ildəki hasilat hələ də müharibədən əvvəlki dövrə çata bilməmişdir. CIA World Factbook 2006 hesablamalarına görə, İraqın təsdiqlənmiş neft ehtiyatları 112,5 milyard barel, təbii qaz ehtiyatları isə 3,115 trilyon bareldir [3].

Ölkədəki neft hasilatının zəifləməsinə səbəb olan digər problem S.Hüseynin iyirmi illik diktatorluğu dövrü və BMT-nin 13 ildir tətbiq etdiyi sanksiyalar olmuşdur. İllərdir mərkəzləşdirilmiş totalitar idarəçilikdən sonra ABŞ-nin işğalı ilə ölkə daxilində geniş bir təhlükəsizlik boşluğu yaranmışdı. Nəzarəti təmin etmək üçün koalisiya qüvvələrinin qeyri-kafi olması, İraqda Koalisiyanın Müvəqqəti Administrasiyasının qanunları və cəmiyyətdə legitimliyini tətbiq etmək səlahiyyətinin olmaması, silahlı birləşmələrin mövcudluğu kimi problemlərin olması ilə yanaşı İraq ordusunun ləğvi, etnik və məzhəb ayrılıqları da bunda təsirli olmuşdu. Belə ki, ABŞ nəzarəti altında yaranan təhlükəsizlik boşluğunu İraqın yeni ordusu və polisi ilə doldurmaq cəhdləri nəticə verməmişdir. Çünki ABŞ kifayət qədər iraqlı yetişdirməklə probleminin öhdəsindən gəlmək mümkün olmamış, çünki onlar arasında etnik və məzhəb qütbləşmələri, həmçinin zaman-zaman işğalçı qüvvələrlə əməkdaşlıqdan imtina etmələri də daxildə problemlərə səbəb olmuşdur [13].

İraqda böhranın yaranması Aİ-nin enerji siyasətinə də mənfi təsir göstərmişdi. Belə ki, Aİ dünyada enerji istehlakı ən çox olan regionlardan biri olsa da, enerji resursları baxımından kifayət qədər imkanlara malik deyildir. Enerji idxalında resurs müxtəlifli-

yinin yaradılmasının vacib olduğunu nəzərə alsaq, Aİ üçün İraqın əhəmiyyətli potensialından istifadə edilməsi vacib şərtdir. Koalisiya qüvvələrinin İraqı işğal etməsi ilə ölkədəki neft yataqları və neftayırma zavodlarının ABŞ-nin nəzarətinə keçməsi ilə Böyük Britaniyadan başqa mühüm Avropa ölkələrinin bu yataqlardan istifadə etməsinə müəyyən qadağalar qoymuşdur. Bu dövrdə Fransa da daxil olmaqla böyük neft şirkətlərinin Səddamın hakimiyyəti zamanında İraqla neft müqavilələrinə xitam verilmiş, BMT-nin 1483 saylı qətnaməsi ilə İraq neftinin idxalına dair bağlanan əvvəlki sanksiyalar aradan qaldırılmış, neft şirkətlərinin idxal hüquqları ləğv edilmişdir [8]. Bu da Avropanın neftə olan tələbatının 1/3-nin, təbii qaza olan tələbatının isə 40%-nin Rusiya tərəfindən təmin edildiyi bir dövrdə Rusiyadan enerji asılılığının artmasına səbəb olmuşdur.

E.Todd ABŞ-Avropa münasibətlərinin ətraflı təhlil edərək yazırdı: “2001-ci il 11 sentyabr hadisələrindən sonrakı ilk günlərdə avropalılar arasında Amerikaya qarşı həmrəylik hissi hökm sürürdü. Bununla belə, ABŞ-nin terrorizmlə mübarizəsi, metodları ilə səmərəsiz və məqsədlərinin aydın olmaması son nəticədə Aİ və Birləşmiş Ştatlar arasındakı münasibətlərdə ciddi antaqonizmi üzə çıxarmışdı”. Bu fikri davam etdirərək E.Todd qeyd edir ki, ABŞ-nin monopoliyasına son qoymaq üçün Aİ, “Boeing” təyyarəsinin istehsal etməyi və qlobal peyk naviqasiyası “Galileo” layihəsini işə salmışdılar. E.Todd burada bir şeyi qeyd etməyi də yaddan çıxarmırdı “avropalılar hələ Amerika ilə inteqrasiya (bu, Avropada milli dövlətin sonu demək olardı) və müstəqillik arasında son seçimi etməyiblər” [14, s.195].

Onu da qeyd etməliyik ki, İraq müharibəsindən ən çox faydalanan ölkələrdən biri Rusiya olmuşdur. Müharibə səbəbi ilə artan neft və təbii qaz qiymətlərindən böyük gəlir əldə etməklə yanaşı, ABŞ-nin nüfuzunu itirməsindən də siyasi fayda əldə etmişdi. İraq kimi mühüm təchizatçının enerji bazarlarına gözlənildiyindən daha az neft tədarük etməsi Rusiyaya üstünlük vermişdir. Rusiya 2005-ci ildə neft ixracından təxminən 122 milyard dollar gəlir əldə etmişdir ki, bu rəqəm 2001-ci ildəki (39 milyard dollar) müqayisədə xeyli artmışdır [5]. ABŞ-nin İraqda düşdüyü çıxılmaz vəziyyətdən Rusiya həm də siyasi və psixoloji üstünlük əldə etməl imkanı qazanmışdı. Qlobal güc olaraq İraqda ABŞ-nin çarəsiz qalması, ərəb ölkələrində artan nifrət və reaksiyalar "soyuq müharibə" dövründə olduğu kimi Rusiyanın balanslaşdırıcı faktor olma şansını artırmışdır. Məsələn, Rusiya Türkiyənin Şimali İraqla bağlı narahatlığına əsaslanaraq hökumət və ictimaiyyət qarşısında siyasi mövqeyini gücləndirməyə çalışırdı. Rusiya rəsmi çıxışında İraqda asayişi təmin etmək və onun ərazi bütövlüyünü qorumaq istədiyini bəyan edərək rəsmi Moskvanın dinc və mehriban bir görünüşünü təqdim etsə də, İraqda uzunmüddətli münaqişə mühiti Rusiyanın maraqlarına uyğun bir vəziyyət yaradırdı.

Rusiyanın xarici işlər naziri İ.S.İvanovun sözləri ilə desək, “Rusiya Yaxın Şərqdə beynəlxalq birliyin digər üzvləri ilə birlikdə ona lazım olan ədalətli, təhlükəsiz dünya istəyir” [7, s.45-46]. Bu şəraitdə Rusiya, şübhəsiz ki, İraqdakı hərbi əməliyyatların formal əleyhdarlarının, o cümlədən Fransa və Almaniyanın tərəfdarlarından birinə çevrilə bilərdi. Həm də Rusiya öz maraqları naminə “İraqa edilən təzyiqlərin” artırılmasının vacibliyini vurğulayırdı. Bu səbəbdən də, Rusiya İraq məsələsini müzakirə edərkən Təhlükəsizlik Şurasında veto hüququndan istifadə etmək istəmədiyini açıq şəkildə vurğulamışdı. Üstəlik, Fransanın TF-1 telekanalının müxbirinin “Amerika qəfildən Rusiya-Fransa-Almaniya blokuna qarşı hərəkət etmək qərarına gələrsə” rəsmi Moskva hansı addımlar atacağı ilə bağlı sualına Rusiya prezidenti açıq şəkildə cavablandıraraq deyirdi: “Biz işləmirik kiməsə qarşı və ya nəyəsə görə. Belə olan halda kəskin beynəlxalq böhranı sülh yolu ilə həll etmək üçün həqiqətən ümid edirik ki, rəyimiz dinləniləcəkdir” [7, s.47].

Digər tərəfdən İraqın işğalı ilə pozulan regional tarazlıqlarda İran ön plana çıxırdı. Belə ki, İran-ABŞ gərginliyi mühüm neft nəqli mərkəzlərindən biri olan Fars körfəzinin təhlükəsizliyini riskə atması mümkün idi. İran Fars körfəzindəki ölkələrdə yaşayan şiə əhaliyə təsirindən istifadə edərək, bu ölkələrdə qeyri-sabitlik yaratmaqla öz siyasətini həyata keçirməyə çalışır. Digər tərəfdən isə işğal olunmuş İraqda əlverişli mühitdən istifadə edən radikal təşkilatlar ABŞ-nin müttəfiqi olan neft hasil edən ölkələrin təhlükəsizliyini təhdid edə biləcək səviyyəyə gəlib çatmışdır. Əslində neft və təbii qaz obyektlərinin təhlükəsizliyinin təmin edilməsində çətinliklər bu obyektləri hücumlar üçün cəlbedici edirdi. Nəticədə boru kəmərləri, neftayırma zavodları və quyular terror hücumları, siyasi qeyri-sabitlik və sosial qarışıqlıqlar zamanı təəcüblü deyildir ki, hücuma məruz qalmışdılar

Ənənəvi olaraq mürəkkəbliyi xarakterizə olu-

nan İraq-Suriya münasibətlərinə gəlincə, Bağdadda rejim dəyişikliyindən sonra da onlar özünəməxsus mənfi xüsusiyyətlərini saxlamışdır. Qeyd olunduğu kimi, 2003-cü ilin aprel ayında S.Hüseyn rejiminin devrilməsi Suriya tərəfindən narahatlıqla qarşılanmışdır. Məşhur tədqiqatçı Q.Mirskinin fikrincə, Suriya prezident B.Əsəd belə olan vəziyyətdə çətin dilemma qarşısında qalmışdı [12, s.100]. Çünki İraqda köhnə rejimin devrilməsi Suriyanın Şimali İraqdakı enerji layihələrində olmasını çətinləşdirirdi. Lakin rəsmi Dəməşq ölkədəki siyasi vəziyyəti nəzərə almaqla tam təcrid vəziyyətində olmaqla ABŞ ilə qarşıdurmaya gedə bilməzdi. ABŞ Dövlət Departamentinin Suriyanın beynəlxalq terrorizmi himayə edən ölkə kimi “qara siyahısı”na daxil etməsi və onun qondarma “demokratik dövlətlər”lə yaxınlığı rejim üçün ciddi siqnal olmuşdu. İraq əməliyyatı başa çatdıqdan sonra ABŞ prezident C.Buş Dəməşqə xəbərdarlıq edərək bildirmişdi ki, “o, ABŞ və onun koalisiya tərəfdaşları ilə əməkdaşlıq etməli və ağır hərbi cinayətlərə görə məsuliyyət daşıyanları: Baas Partiyasının üzvlərini və hərbi cinayətkarları sığınacaq verməməlidir, onlar məsuliyyətə cəlb edilməlidir. Ümid edirik ki, suriyalılar bu sözlərin mənasını anlayarlar”[4, s.110]. Onu da qeyd edək ki, ABŞ-nin müdaxiləsi ilə 2003-cü ilin aprel ayında İraq müqavimət qüvvələrini açıq şəkildə dəstəklədiyinə görə Suriyanı “cəzalandırmaq” üçün Kərkük-Bəniyas neft kəməri ilə İraq neftinin nəqli dayandırılmışdı.

Türkiyənin isə müharibədən sonrakı dövrdə neft hasilatında nəzərdə tutulan hədəflərə nail olması mümkün olmamışdı. Çünki boru kəmərlərinin, neft quyularının və neft emalı zavodlarındakı təxribatların nəticəsi olaraq İraqda neft hasilatının azalması Türkiyənin istəklərinin qarşısını almış olmuşdur. Bu vəziyyət nəinki İraqda, eləcə də dünya bazarlarında neft məhsullarının bahalaşmasına səbəb olmuşdu ki, nəinki ölkə iqtisadiyyata hətta regiondakı dövlətlərə də mənfi təsir göstərmişdi. Nəticədə ölkə daxilində işğalçı qüvvələrə qarşı mənfi reaksiya yaranmışdı ki, bu da ölkədə etnik qarşıdurmalara yol açmış olurdu. Lakin Türkiyənin prezidenti R.T.Ərdoğanın Ərbilə səfəri zamanı ikitərəfli əlaqələrdə “qırılma” yaradacaq digər mühüm hadisə Kürdüstan Regional Rəhbərliyinin Təbii Sərvətlər naziri Aşti Havramini ilə görüşü olmuşdur. Bu görüşlə Ankaranın Ərbilə enerji marağı əhəmiyyətli dərəcədə artmağa başladı. İki ölkə arasında enerji əlaqələri 2012-ci ilə qədər davam etmişdir. Çünki Türkiyənin ucuz enerji tapmaq, Rusiya və İrandan enerji asılılığını azaltmaq, regionun enerji transfer mərkəzinə çevrilmək siyasəti Ankaranı sürətlə Ərbilə yaxınlaşdırmışdır. Suriya vətəndaş müharibəsi kontekstində Ankara ilə Bağdad arasında gərginliyin artması və ölkənin çimalına PKK-nın hücumlarının güclənməsi enerji təhlükəsizliyinə əlavə edildikdə, Ankaranın Ərbillə münasibətlərinə ciddi təsiri öz əksini tapmış olmuşdur. Bütün bunların nəticəsidir ki, 20 may 2012-ci il tarixində Türkiyənin energetika naziri Taner Yıldızın səfəri zamanı mərkəzi İraq hökumətinin razılığı olmadan Kürd Regional Rəhbərliyinin Təbii Sərvətlər Naziri Aşti Havrami ilə müxtəlif enerji sazişləri imzalamışdır [1]. Bu razılaşmalara əsasən Kürdüstan Regional Rəhbərliyinin nəzarət etdiyi ərazilərdən gündəlik bir milyon neft və təbii qaz ehtiyatlarının Türkiyə üzərindən ötürülməsi nəzərdə tutulurdu. Bunun nəticəsi idi ki, 2014-cü ilə qədər Ərbil Ankaranın ən mühüm enerji tərəfdaşına çevrildi və "Ərəb baharı"ndan sonra tarazlıqların dəyişdirildiyi Yaxın Şərqdə əlaqələrin ən yaxşı şəkildə həyata keçirildiyi aktyor statusuna yüksəldi. Ankara ilə Ərbil arasındakı bu ciddi yaxınlaşma PKK məsələsində də özünü göstərdi. Lakin Ərbilin dəstəyi ilə Ankara 2012-ci ilin sonunda bölgədə yeni sülh prosesinə başladı. Bu proses çərçivəsində PKK silahlılarının geri çəkiləcəyi nəzərdə tutulurdu.

Başqa bir məsələ isə budur ki, ABŞ-nin İraqın neft sərvətlərindən istifadə edərək bu ölkəni bir yerdə saxlaya biləcəyi fikri indiyədək praktikada uğurlu olmamışdır. Belə ki, ölkədə sünni ərəblərin üstünlük təşkil etdiyi bölgələrdə neft və təbii qaz ehtiyatları yoxdur. ABŞ-a görə bu onların kürdlər və şiələrlə birlikdə yaşamağa razı olacağı ehtimalını yaradırdı. Belə ki, ABŞ-nin bu istəyi ilə sözügedən iqtisadi “mükafat” yalnız rasional hesab edilə bilən siyasi mühitlərdə və liderlərin iştirakı ilə funksional ola bilərdi. Lakin hadisələrin gəldiyi mərhələdə və İraqdakı məzhəblərarası münaqişə mühitində bu lahiyənin müzakirə oluna biləcəyi mühit yox idi. Çünki neft ehtiyatlarının cəmləşdiyi bölgələrə faktiki nəzarət edən və ya nəzarəti ələ keçirə biləcəklərini hiss edən şiə ərəblər, eləcə də kürdlər çox vaxt sünni ərəblərə qarşı əməkdaşlıq etməklə ölkənin bütövlüyünü qorumaq üçün kifayət qədər həvəsli deyildirlər. Bu səbəbdən də enerji sahəsində xarici bir ölkə olan Türkiyənin diversifikasiya siyasəti nəticəsində fərqli təchizatçılardan və marşrutlardan enerji təchizatı üçün vacibdir. Bu çərçivədə, İraqın Türkiyənin ener-

ji təhlükəsizliyi baxımından əhəmiyyəti həm neft, həm də təbii qaz idxalına alternativ forması ilə əlaqədardır [10, s.54]. Belə ki, Türkiyənin neft idxal etdiyi ölkələr arasında İraqın payı son illərdə artmış və 2015-ci ildən bəri 46 faizə yüksəlmişdi [16]. Çünki İraqın neft hasilatı və tranzit infrastrukturunda ediləcək investisiyaların ardından demək olar ki, ölkənin ixrac gücü yenidən artmışdır. Təbii qazda mövcud tutum məhduddur, lakin ixrac potensialı yüksəkdir. 17 trilyon kubmetr sübut edilmiş təbii qaz ehtiyatı ilə dünyanın 12-ci yerdə duran İraq, 2017-ci ildən ixracat aşağı düşərək cəmi 1,1 milyard kubmetr olmuşdur [2]. Mövcud istehsal və ixrac infrastrukturunun qeyri-adekvat olmasına baxmayaraq, Qərb üçün İraqın ehtiyatları və Türkiyə əhəmiyyətli bir tədarük mənbəyi kimi görülürdü. Ancaq İraqın siyasi quruluşundakı "tıxanmın" yaratmış olduğu problemlər və 2014-cü ildə yaranan İŞİD təhlükəsi səbəbindən qısa layihələrin həyata keçirilməsində maneə olmuşdur.

Türkiyənin coğrafi baxımdan yaxın olduğu bölgələrdən biri olan Yaxın Şərqdə öz maraqlarına zidd strategiyaların olması (Fələstin, İraq və İran kimi ölkələrlə əlaqələri) uzunmüddətli perspektivdə Ankaranın mühüm neft və təbii qaz planlarını alt-üst edirdi. Çünki enerji nəqli xətlərinin başqa ölkələrin ərazisindən keçmə ehtimalı Türkiyənin əleyhinə idi. Yaxın Şərq Türkiyənin təsir coğrafiyası daxilində olduğu halda, onun buradakı ölkələrlə əlaqələri gün-gündən zəifləyir. Bununla belə, rəsmi Ankara çalışırdı ki, Yaxın Şərqin enerji resurslarının Avropaya satan distribütor ölkə Türkiyə olsun. Belə ki, Fars körfəzində dünya neft yataqlarının təxminən 60%-i mövcuddur. Səudiyyə Ərəbistanı 20% neft ehtiyatı ilə dünyanın ən böyük neft istehsalçısı olsa da İran dünya təbii qaz ehtiyatlarının 15%-nə, İraq isə 12%-nə malikdir. Buna görə də Türkiyə ABŞ-nin İraq siyasətində kənarda qalmaq istəmirdi. Çünki Türkiyə enerji ehtiyatlarının Qərb bazarlarına təhlükəsiz ixracatında əsas tranzit yolu olmaq istəyi onun region siyasətində prioritet məsələ olmuşdur. Bu həm də Türkiyəni "mərkəzi dövlət" olmaq yolunda maneələri aradan qaldırmış olacaqdır ki, buna görə də rəsmi Ankara Vaşinqton ilə yaxın münasibətdə qalmağa çalışırdı. Digər tərəfdən isə Türkiyə bir şeyi anlayırdı ki, ABŞ dəstəyi olmadan regionda sülh və sabitliyə nail ola bilməyəcək, bu səbəbdən də şimal və cənub istiqamətində təhlükəsiz nəqlini inkişaf etdirmək üçün ABŞ-Türkiyə münasibətlərin normallaşması regionun gələcəyi üçün şərt olmuşdur.

Aparılan araşdırma nəticəsində onu qeyd etmək olar ki, Türkiyənin son 10 ildə regionun enerji ehtiyatları ilə bağlı ciddi addımlar atmaq imkanı olmamışdır. Digər tərəfdən İranın regionda irriqasiya və enerji sahəsində bir dövlət kimi fəaliyyət göstərdiyi müşahidə edilirdi. Yəni Türkiyənin yerinə bölgədə yaranan boşluqları başqa dövlətlərin doldurması mümkün idi. Hazırda isə demək olar ki, İraqda və şimalında özəl şirkətlərin fəaliyyəti üçün çox da uyğun mühit yoxdur. Bölgədəki qeyri-müəyyənlik davam etdikcə bu mümkün olmayacaqdır. Bu da Türkiyə şirkətlərinin qısa müddətdə bölgəyə qalıcı və irimiqyaslı sərmayə qoymasında çətinliklər yaradır. Lakin bu vəziyyəti yalnız mənfi cəhət kimi görmək düzgün deyildir. Çünki Türkiyənin özəl sektoru qeyri-sabit mühitə və İraqdakı kimi problemlərə öyrəşməmişdir. Bu səbəbdən ABŞ və yeni qurulan İraq rəhbərliyinin aparacağı iqtisadi siyasət nəticəsində ortaya çıxacaq imkanlardan əhəmiyyətli pay almaq mümkün olması qeyri-mümkündür. Amma bunlara baxmayaraq Qərb şirkətləri üçün yaranan coğrafi məsafə, mədəni fərqlər və rəqabət faktorları Türkiyə sərmayəsi üçün bir üstünlük idi. Bununla yanaşı, rəsmi Ankara və Bağdad arasındakı münasibətlərin əhəmiyyətli bir sütunu Türkiyənin İraqa enerji yatırımlarıdır. Bu baxımdan İraqın şimal hissəsi Türkiyə üçün cəlb edən bir bölgəyə çevrilmişdir [11, s.102]. Çünki qeyri-sabitliyə malik olan İraqda risklərin müqabilində Qərb dövlətləri üçün ön plana çıxan Türkiyə, onların investorları üçün geniş enerji investisiya imkanları təmin edə biləcəkdir. Bundan başqa Vaşinqtonun təzyiqlərinə baxmayaraq iki ölkə arasında əməkdaşlığın digər vacib sahəsi Türkiyədən İraqa elektrik enerjisi ixracıdır. Türkiyə, infrastruktur problemləri olan İraq üçün elektrik enerjisi ehtiyaclarını qarşılamaqda mühüm aktor kimi ön plana çıxmış və qonşusunun birtərəfli enerji ixracatına bir tarazlıq gətirmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq onu da qeyd etmək olar ki, Türkiyə nəyin bahasına olursa olsun İraqla münasibətlərini bərpa etməlidir. Çünki İraqdan gətirilən neft, sərhəd ticarəti, boru kəmərləri Türkiyə iqtisadiyyatının mühüm sütunlarıdır. Bu işdə ABŞ-nin yardımına ehtiyacı vardır. Çünki Türkiyənin enerji ehtiyatlarını daha uzaqlardan baha qiymətə idxal marşrutları ilə doldurmağa çalışması isə ölkə iqtisadiyyatına mənfi təsir göstərməsi mümkündür. Bundan əlavə, İraq dövlətinə tətbiq edilən embarqoya görə 36-cı paralel üzərindəki qa-

dağan olunmuş ərazi ölkənin cənub-şərqində iqtisadiyyata və sərhəd ticarətinə təsir edən terror mühiti yarada bilərdi. Bu səbəbdən Türkiyə İraqın ərazi bütövlüyünü dəstəkləyir və bu işdə ABŞ-nin yardımı ilə fəal olmağa çalışırdı. Türkiyə İraqla münasibətlərinə uzunmüddətli və hədəf ölkə kimi baxmalıdır. İstər parçalanmış, istərsə də birləşmiş İraq olsun, hər cür şəraitdə bu ölkə ilə enerji ticarətini davam etdirmək Türkiyənin milli maraqlarına uyğundur. İraqın ABŞ vasitəsi ilə Türkiyəyə təsis etdiyi enerji əlaqəsi, həm onun mühüm enerji istehlakçısı kimi formalaşmasına köməkçi olacaq, həm də rəsmi Ankara Vaşinqtonun köməkliyi ilə dünya bazarlarına enerjinin təhlükəsiz daşınmasında bir dəhliz olmaq iddiasını reallaşdırmış olması mümkün idi. Başqa sözlə, ABŞ və Türkiyə həm enerji tələbatına, həm də İraqın tranzit təhlükəsizliyinə töhfə verə biləcək kritik regional tərəfdaşdır. Bunun üçün hər iki dövlətin İraqla bağlı "dövlət siyasəti" bölgədəki kürdlər və PKK ilə bağlı bir-biri ilə ziddiyyət təşkil etməməli, bütövlükdə nəzərdən keçirilməlidir. Bu çərçivədə İraqda demokratiya və azad bazar nizamı vurğularkən, ABŞ demokratikləşmə prosesinin davam etdirməlidir. İraq siyasətlərində hər iki dövlət arasında fikir ayrılıqları aradan qaldırılmalı və strateji planlaşdırma özəl sektor da daxil olmaqla bütövlük göstərməlidir. Belə ki, Şimali İraq uzun illər problem bölgəsi olaraq qalacaq və Türkiyə üçün yaşamaq probleminə çevrilə bilər. Strateji inkişafa gətirib çıxaracaq belə bir xroniki problemin öhdəsindən gəlmək və mübarizənin maya dəyərini azaltmaq ancaq güclü siyasi iradə, funksional təşkilatlanma, kifayət qədər büdcə və ixtisaslı kadrlarla mümkün ola bilərdi. Bu çərçivədə, istər ABŞ, istərsə də Türkiyə İraqda strategiyaları koordinasiya edəcək və sürətli qərarlar alaraq həyata keçirəcək daimi bir struktur yaradılmasına çalışmalıdırlar.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Balcı, A.'Enerji'sine Kavuşan Komşuluk: Türkiye-Kürdistan Bölgesel Yönetimi İlişkileri, SETA Analiz Serisi, (94), Haziran 2014*

*2. "BP Statistical Review of World Energy 2017", BP, son erişim tarihi: 4 Mart 2018, https://www.bp.com/content/dam/bp/en/corporate/pdf/energy-economics/statistical-review-2017/bp-statistical-review-of-world-energy-2017-full-report.pdf.*

*3. CIA, The World Factbook 2007, Iraq, https://www.cia.gov/cia/publications/factbook/geos/iz.html#Econ*

*4. Волович А.А. Осложнение сирийско-американских отношений в контексте иракского кризиса // Ближний Восток и современность. М.: ИИИиБВ РАН, 2006. –С. 109-114 s. 110*

*5. Energy Information Administration (EIA), "OPEC Revenues Fact Sheet", http://www.eia.doe.gov/cabs/OPEC_ Revenues/OPEC. html.*

*6. Ергин, Д. Всемирная история борьбы за нефть, деньги и власть : добыча. — Москва : ДеНов, 1999. — С. 16.*

*7. Косач, Г.Г. Россия и Арабский мир: отношение к Иракской проблеме. (Ed) Е.С.Мелкумян. Иракский кризис. международный и региональный контекст, - Москва: институт изучения израиля и ближнего востока, - 2003, - s.45-46*

*8. James A. Paul, "Oil Companies in Iraq: A Century of Rivalry and War", Global Policy Forum, Kasım 2003, http://www.globalpolicy.org/security/oil/2003/2003companiesiniraq.htm.*

*9. Laçiner, S. "Irak Savaşı: Nedenleri ve Sonuçları Üzerine Bir Deneme", USAK Stratejik Gündem, http://www.usakgundem.com/makale.php?id=153*

*10. Matthew J. Byrza, "Turkey's Dramatic Shift Toward Iraqi Kurdistan: Politics Before Peace Pipelines", Turkish Policy Quarterly 11, sayı 2, 2012, 53–61.*

*11. Michael M. Gunter, "Economic Opportunities in Iraqi Kurdistan", Middle East Policy, 2011, cilt 18 sayı 2, ss.102–109.*

*12. Мирский Г.И. Исламизм, транснациональный терроризм и ближневосточные конфликты. М.: Изд. дом ГУ ВШЭ, 2008. –163 с. S.100*

*13. US Department of Defense, News Transcript, "Presenter: Lt. Gen. Martin Dempsey, commander, Multinational Security Transition Command in Iraq", 2 Aralık 2005, http://www.defenselink.mil/*

*transcripts/transcript.aspx?transcriptid=1358*

*14. Todd E. Après l'empire. Essai sur la décomposition du système américain. Paris, 2002. P. 195*

*15. "Türkiye'nin Enerji Profili ve Stratejisi", Dışişleri Bakanlığı, son erişim tarihi: 13 Kasım 2016, http://www.mfa.gov.tr/turkiye_nin-enerji-stratejisi.tr.mfa.*

## XÜLASƏ

Yaxın Şərq siyasi strukturların sürətlə dəyişdiyi və buna görə də son bir neçə ildə siyasi qarşıdurmaların hökm sürdüyü coğrafi bölgə kimi seçilir. Xüsusilə, son bir neçə ildə Suriya vətəndaş müharibəsinin yaratdığı qeyri-sabitlik, İraq və Suriya İslam Dövlətinin (İŞİD) bölgədəki vilayətləri ələ keçirməsi və neft emalı zavodları üzərində hökmranlığını qurması həm siyasət, həm təhlükəsizlik, həm də enerji təhlükəsizliyi baxımından Türkiyəyə təsir gücünə malik bir platforma yaratmaqdadır. Xüsusilə 2014-cü ilin iyun ayından etibarən Suriya və İraqda bir çox neft yatağına nəzarəti ələ keçirən İŞİD İraqın və bütün bölgənin enerji mənzərəsini yenidən formalaşdıra biləcək bir güc olaraq Türkiyənin təhlükəsizliyini və dolayısı ilə enerji təhlükəsizliyini təhlükə altına ala biləcək şərtləri də özü ilə gətirdi. Bu araşdırmanın məqsədi ABŞ - Türkiyə arasında enerji ortaqlığını və onun gələcəyini son hadisələr işığında təhlil etməkdir.

**Açar sözlər:** *enerji təhlükəsizliyi, Şimali İraq, Türkiyə, İŞİD.*

### The Northern Iraq factor in energy security and cooperation between Turkey and the US

## SUMMARY

The Middle East is notable for its quickly shifting political institutions, which have resulted in political crises in recent years. In particular, the instability caused by the Syrian civil war in recent years, the Islamic State of Iraq and Syria's seizure of provinces in the region, and the establishment of dominance over oil refineries are providing Turkey with a platform from which to influence politics, security, and energy security. ISIS, in particular, has taken control of several oil fields in Syria and Iraq since June 2014, posing a threat to Turkey's security and, as a result, energy security, as a force capable of reshaping Iraq's and the region's energy landscapes. The goal of this study is to examine the US-Turkey energy collaboration and its prospects in light of current events.

**Keywords:** *Energy Security, Northern Iraq, Turkey, ISIS.*

### Фактор Северного Ирака в энергетической безопасности и сотрудничестве между Турцией и США

## РЕЗЮМЕ

Ближний Восток отличается быстро меняющимися политическими институтами, что привело к политическим кризисам в последние годы. В частности, нестабильность, вызванная гражданской войной в Сирии в последние годы, захват Исламским государством Ирака и Сирией провинций в регионе, а также установление господства над нефтеперерабатывающими заводами предоставляют Турции платформу для влияния на политику, безопасность и энергетическую безопасность. В частности, ИГИЛ взял под контроль несколько нефтяных месторождений в Сирии и Ираке с июня 2014 года, представляя угрозу безопасности Турции и, как следствие, энергетической безопасности, как сила, способная изменить энергетический ландшафт Ирака и региона. Целью данного исследования является изучение энергетического сотрудничества США и Турции и его перспектив в свете текущих событий.

**Ключевые слова:** *энергетическая безопасность, Северный Ирак, Турция, ИГИЛ.*